**AUDİT 2023, 1 (39), səh. 49-56.**
**AUDIT 2023, 1 (39), pp. 49-56.**
**АУДИТ 2023, 1(39), стр. 49-56.**

**DOI: 10.59610/bbu1.2023.49-56**

*Pənahov Azər Maarif oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru,*
*Bakı Biznes Universiteti*
*E-mail: azer-panahov@mail.ru*
*©PənahovA.M., 2023*

**UOT - 336**

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN MÜSTƏQİL MİLLİ İQTİSADİYYATIN FORMALAŞMASININ MEMARIDIR

## X Ü L A S Ə

Ulu Öndər Heydər Əliyev milli lider kimi, bütün həyatını və siyasi fəaliyyətini məxsus olduğu xalqa xidmətə həsr etmiş və özünün Azərbaycana rəhbərliyinin hər iki dövründə ölkəmizi çətin sınaqlardan çıxararaq tərəqqiyə doğru aparmağa nail olmuşdur. Azərbaycanın dövlət müstəqilliyini qorumaq, möhkəmlətmək və ölkəmizin dünya birliyinə inteqrasiya olunması üçün dinc və əlverişli beynəlxalq şəraitin təmin edilməsinə yönəlmiş çoxşaxəli, tarazlaşdırılmış, fəal xarici siyasətinin nəticəsidir ki, respublikamız planetin siyasi xəritəsində özünə layiq yer tutmuş, regionun və beynəlxalq aləmin qlobal problemlərinin həllində təsirli və əhəmiyyətli mövqe qazanmışdır. Məqalədə məhz bu məsələlər geniş şəkildə şərh edilmişdir. Heydər Əliyevin fəaliyyəti ilə ölkənin milli idarəetmə sistemi tam şəkildə dəyişdirilmiş və Azərbaycan Respublikasının iqtisadiyyatının inkişafına təkan verən sahələrin təkmilləşdirilməsinə şərait yaratmışdır.

**Açar sözlər:** dövlət strategiyası, iqtisadiyyatın inkişafı, bazar münasibətləri, müstəqilliyin qorunması, siyasi fəaliyyət.

## G İ R İ Ş

Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, türk dünyasının böyük oğlu, Ümummilli Lider Heydər Əliyev bütün şüurlu həyatını canından artıq sevdiyi xalqının xoşbəxt yaşamasına, Azərbaycanın tərəqqisinə həsr etmişdir. O, bir milli lider kimi, bütün həyatını və siyasi fəaliyyətini məxsus olduğu xalqa xidmətə həsr etmiş və özünün Azərbaycana rəhbərliyinin hər iki dövründə ölkəmizi çətin sınaqlardan çıxararaq tərəqqiyə doğru aparmağa nail olmuşdur. Ölkəmizin müstəqil inkişaf yolu, milli ideologiyamızın, milli iqtisadiyyatın, xarici siyasətin başlıca prinsipləri, sosial-iqtisadi sahədə qarşıda duran vəzifələr, milli-mənəvi dəyərlərimizin qorunması, gənc nəslin tərbiyəsi, elm, mədəniyyət, təhsil və s. cari və strateji əhəmiyyətli vəzifələr Ümummilli Liderimiz tərəfindən müəyyən edilmişdir.

Müstəqil Azərbaycanın dövlət quruculuğu sahəsində üzləşdiyi çətin və mürəkkəb problemlərin həlli istiqamətində Ümummilli Lider Heydər Əliyevin hazırlayaraq həyata keçirdiyi iqtisadi inkişaf doktrinasının reallaşdırılması sayəsində mümkün olunmuşdur. Onun müəyyən etdiyi mükəmməl inkişaf konsepsiyasının həyata keçirilməsi dövlət suverenliyini bərpa edən Azərbaycanda demokratik dövlət quruculuğu və kompleks islahatların reallaşmasına, azad

AUDİT 2023, 1 (39), səh. 49-56.
AUDIT 2023, 1 (39), pp. 49-56.
АУДИТ 2023, 1(39), стр. 49-56.

bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdırılmasına, yeni iqtisadi dövrün tələblərinə uyğun təsərrüfat sisteminin yaradılmasına və dinamik inkişafın təmin olunmasına dərin əsaslar yaradıb.

Ulu Öndər müstəqilliyə xüsusi əhəmiyyət verərək demişdir: Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanması, daimi əbədi olması bundan da çətindir (1, s.2). Məhz dövlət müstəqilliyini qoruyub saxlamaq, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, ölkənin ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, respublikanın vətəndaşlarının rifahını yaxşılaşdırmaq və digər ümummilli məqsədlər Azərbaycan xalqının təkidli tələbindən sonra 1993-cü ildə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin gərgin və qətiyyətli əməyi sayəsində mümkün olmuşdur. Əlbəttə Azərbaycanı üzləşdiyi ağır çətinliklərdən qurtarmaq, ölkədə ictimai-siyasi sabitliyi bərpa etmək üçün görülmüş işlər və əldə edilmiş müsbət nəticələr onun siyasətinin gücünü və qüdrətini bariz şəkildə nümayiş etdirir.

Böyük dövlət idarəçiliyi təcrübəsinə malik olan Ulu Öndər Heydər Əliyev Azərbaycanı məruz qaldığı dərin böhrandan xilas etmək məqsədilə çox mühüm tədbirlər həyata keçirərək, elmi, nəzəri əsaslara, praktiki təcrübəyə və dünyagörüşünə əsaslanan böyük planlar əsasında Azərbaycanı dövlətini böhrandan xilas edə bildi (2, s.14). Ulu Öndərin həyata keçirdiyi uzaqgörən siyasəti sayəsində ölkədə qanunvericilik bərqərar edildi və əsası qoyulmuş sosial-iqtisadi inkişaf proqramları böyük uğurla davam etdirilmiş, çox mühüm nəticələr əldə edilmişdir.

Ümummilli Lider Heydər Əliyev iqtisadi böhrandan xilas olmaq üçün, vergi və sahibkarlığın inkişaf etdirməsi üçün bir sıra islahatlar həyata keçirdi. Qeyd edək ki, həmin dövrdə ölkədə iş yerlərinin çoxu bağlanmış və işsizlərin sayı çoxalmış, ölkədə gedən müharibənin nəticəsində öz doğma yerlərini tərk etmiş əhalinin xeyli hissəsinin çalışmaq qabiliyyəti olsa da, iş yerlərinin olmaması, pulun inflyasiya dəyərinin aşağı düşməsi, qiymətlərin qalxması, alıcılıq qabiliyyətinin azalması və xarici dövlətlərlə iqtisadi əlaqələrin olmaması iqtisadi böhranı aradan qaldırmağa mane olurdu. 1993-cü ildə təsdiq edilmiş "Azərbaycan Sahibkarlığının İnkişafı" (1993-1995) adlı Dövlət proqramı Azərbaycanda kiçik və orta sahibkarların sayının artmasına, xarici ölkələrlə iqtisadi ticarət əlaqələrinin yaranmasına müsbət təsir göstərmişdir.

Ulu Öndər Heydər Əliyevin apardığı genişmiqyaslı siyasət iqtisadiyyatın bütün sahələrini əhatə edirdi. Aqrar sektorun inkişaf etdirilməsinə dair bir çox islahatların müəllifi kimi Heydər Əliyev kənd təsərrüfatında olan problemlərin həlli üçün 1994-cü ildə 9 dəfə müşavirə keçirmiş, kənd təsərrüfatında olan problemlərlə şəxsən yaxından tanış olmuşdur. Müşavirədə təkcə rəhbər orqanlar deyil, alimlər, aqrar sahədə mütəxəssislər iştirak edirdilər. Bundan sonra aqrar islahatları həyata keçirmək üçün hüquqi baza yaradıldı və 1995-ci il fevralın 18-də "Aqrar islahatın əsasları haqqında" və "Sovxoz və kolxozların islahatı haqqında" qanun qəbul olundu (3, s.6).

Ulu Öndər Heydər Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycan getgedə öz inkişafını yenidən bərpa edir və qüdrətlənirdi. Azərbaycanda iqtisadi inkişafın birinci mərhələsində bu inkişafın tənzimlənməsi üçün müəyyən çətinliklər var idisə, artıq ikinci mərhələdə Azərbaycan inkişafını bərpa etməsi üçün kifayət qədər gücə malik idi. 1995-2003-cü illəri əhatə edən bu dövr öz mühüm müqavilələri və islahatları ilə bu müstəqilliyi bir daha möhkəmləndirdi. Artıq Heydər Əliyev apardığı siyasət və gördüyü işlər ilə yeni inkişaf mo-

**AUDİT 2023, 1 (39), səh. 49-56.**
**AUDIT 2023, 1 (39), pp. 49-56.**
**АУДИТ 2023, 1(39), стр. 49-56.**

deli – Yeni Azərbaycan modeli yaratmışdı. Bu inkişaf özünü hər sahədə göstərməklə sahibkarlığı, kənd təsərrüfatını, sənayeni, neft sənayesini, magistral yolları, bank sahəsini, vergi sahəsini, nəqliyyatı və başqa sahələri əhatə edirdi. Bu sahələrin inkişafı artdıqca onların başqa xarici dövlətlərlə iqtisadi münasibətləri güclənirdi və bu da nəticədə Azərbaycanın get-gedə güclənməsinə gətirib çıxardı. Heydər Əliyev həmişə deyirdi: "Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını inkişaf etdirə bilməz" (4, s.23). Buna görə də, həmişə çalışırdı ki, Azərbaycan başqa dövlətlərlə iqtisadi əlaqələri qurmaq üçün müəyyən inkişaf sahəsinə malik olsun.

Heydər Əliyevin yaratdığı yeni model Azərbaycanın inkişafının sürətlənməsi dövrü kimi 1996-cı ildən daha da artmışdır. Bu dövrdə bir çox irimiqyaslı müqavilələr bağlanmış, mühüm əhəmiyyət kəsb edən sənədlər və aktlar imzalanmışdır. Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi və artırılması üçün dövlət tərəfindən müxtəlif dövrlərdə qəbul olunmuş "Azərbaycanda Kiçik və Orta Sahibkarlığa Dövlət Yardımı Proqramı (1997-2000-ci illər)", "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)" Azərbaycanda sahibkarlığın inkişafına təkan verdi. Bu Dövlət proqramı hal-hazırda da, Azərbaycan Respublikasıının Prezidenti İlham Əliyev cənabları tərəfindən müvəffəqiyətlə davam etdirilir.

Təhlillər göstərir ki, dinamik iqtisadi inkişaf yolunun keçilməsi Ulu Öndərin gərgin əməyi nəticəsində, Azərbaycanın onun hakimiyyətinin birinci dövründə 1969-1982-ci illərdə respublikada güclü iqtisadiyyatın təməlinin qoyulması sayəsində reallaşmış və qısa müddət ərzində yüksək iqtisadi inkişafa nail olunmuşdur. Bütün bunlar Heydər Əliyevin görkəmli dövlət xadimi, peşəkar siyasətçi olmaqla yanaşı, həm də respublikanın xalq təsərrüfatına dərindən bələd olan ölkə başçısı olduğu barədə fikirləri təsdiqləyir. Çünki 1969-1982-ci illərdə Heydər Əliyevin rəhbərliyi ilə yürüdülən iqtisadi və sosial siyasət sayəsində respublika iqtisadiyyatının bütün sahələrinin, elmin və mədəniyyətin inkişaf etməsi, xalqın həyat səviyyəsinin yüksəldilməsinə yalnız xalq təsərrüfatının dərin bilicisi olmaqla müvəffəq olmaq mümkün idi. Məhz Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən islahatlar sayəsində Azərbaycan aqrar-sənaye respublikasından sənaye-aqrar respublikasına çevrildi. Respublikada aparılan geniş miqyaslı quruculuq işləri nəticəsində Azərbaycanda bir neçə il ərzində yeni yaşayış massivləri, binalar, məktəblər, sənaye müəssisələri tikildi, yollar salındı. Azərbaycan gənclərinin elmin və təhsilin dərinliklərinə yiyələnməsi və ölkənin sabahı üçün peşəkar kadr olması üçün Heydər Əliyevin gərgin səyi nəticəsində on minlərlə azərbaycanlının keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində təhsil almaları üçün şərait yaradıldı (5, s.72).

Tarixdən məlum olduğu kimi, iqtisadi müstəqillik, iqtisadi qüdrət millətin siyasi müstəqilliyinin bazisini təşkil edir. Bu baxımdan keçən əsrin 70-80-ci illərində Azərbaycanın iqtisadi sahədə qazandığı nailiyyətlər siyasi müstəqillik yolunda mühüm təməl hesab edilməlidir. Bu mənada, ulu öndərin bu fəaliyyəti ilə təkcə, İttifaq respublikası olan Azərbaycanın deyil, həm də gələcək müstəqil Azərbaycanının möhkəm təməli, sonrakı nəsillərin xoşbəxt və firavan həyatının təməli qoyuldu. Onun hakimiyyətinin növbəti mərhələsində Azərbaycan dünya miqyasında tanınan və tərəqqiyə doğru gedən dövlət statusunu qazandı. Ulu Öndərin yenidən ölkəyə rəhbərliyi sayəsində siyasi sabitlik bərqərar oldu, atəşkəs əldə edildi, irimiqyaslı iqtisadi islahatlara başlanıldı. Bunun nəticəsində ölkədə maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata

**AUDİT 2023, 1 (39), səh. 49-56.**
**AUDIT 2023, 1 (39), pp. 49-56.**
**АУДИТ 2023, 1(39), стр. 49-56.**

cəlb olunan investisiyaların həcmi ildən-ilə artdı, xalqın həyat səviyyəsi yaxşılaşmağa başladı.

Ümummilli Lider Heydər Əliyevin dövlət idarəçiliyi ilə əlaqədar keçirdiyi hər bir tədbir, qəbul etdiyi hər bir qərar, söylədiyi hər bir yeni fikir müstəqil dövlətimizin inkişafı və gələcəyi üçün çox böyük əhəmiyyət daşımaqdadır. Onun müstəqil dövlətimizlə əlaqədar müəyyənləşdirdiyi bir çox təməl prinsiplər var ki, onlar içərisində azərbaycançılığın yerini qeyd etmək əsasdır. Bu azərbaycançılıq prinsipləri tək Azərbaycan vətəndaşları üçün deyil, dünyanın müxtəlif ölkələrində yaşayan hər bir azərbaycanlını birləşdirir. Ulu Öndər Heydər Əliyev tərəfindən qəbul olunan digər prinsiplər də dövlətimizin inkişafı, ideya-siyası, hərbi vətənpərvərlik tərbiyəsi dövlət idarəçiliyi və quruculuğu üçün əhəmiyyətli olan prinsiplərdir.

Müstəqil Azərbaycan dövlətinin xarici ticarət, siyasi, iqtisadi doktrinası və konsepsiyası Heydər Əliyev zəkasının məhsuludur. Azərbaycanın yerləşdiyi mürəkkəb və ziddiyyətli bir bölgədə milli maraqları qorumağa qadir qətiyyətli və cəsarətli xarici siyasət xəttini uğurla və böyük məharətlə reallaşdıran Heydər Əliyev milli diplomatiyamızın ən bariz örnəyini yaratmışdır (5, s.31). Azərbaycanın milli təhlükəsizliyinin möhkəmləndirməsi istiqamətində Ulu Öndər Heydər Əliyevin yeritdiyi siyasətin uğurları hazırkı mərhələdə özünün müsbət təsirini göstərir. Aparılmış bu siyasətin uğurları nəticəsində Azərbaycan öz sərvətlərinə sahib ola bilmişdir. Azərbaycan Müstəqilliyi bərpa etdikdən sonra ölkəmizin xarici ölkələrlə birbaşa iqtisadi-ticarət əlaqələri yarandı. Belə əlaqələrdən biri Xəzər dənizinin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması idi.

Müstəqil Azərbaycanın yüksək inkişaf mərhələsinə çıxmasında, milli-iqtisadi təhlükəsizliyinin möhkəmlənməsində və zəngin iqtisadiyyata malik olmasında neft amili xüsusi rol oynayır. Neft sərvətlərinin mənimsənilməsi, işlənilməsi və nəqli, ən əsası isə düzgün, düşünülmüş iqtisadi strategiyaya uyğun neft siyasətinin həyata keçirilməsi respublikamızın hazırkı tərəqqi mərhələsinə çatmasına dərin əsaslar yaradıb. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra neft sənayesində tamamilə yeni mərhələnin əsası qoyuldu. Bu dövrdə başlıca vəzifə müstəqil ölkənin neft sənayesinə xarici neft kompaniyalarını cəlb etmək və yeni nəql marşrutları yaratmaqdan ibarət idi.

Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1994-cü ilin sentyabr ayında «Əsrin müqaviləsi» adlanan möhtəşəm neft müqaviləsi imzalandı və bütün dünya dövlətlərinin Azərbaycana inamını artıraraq bir qədər sonra dünyanın ən böyük və tanınmış neft şirkətlərinin ölkəmizə axınına şərait yaratdı. Bununla da Azərbayacan milli iqtisadiyyatını xarici sərmayələr üçün cəlbedici etdi. Müqavilənin imzalanması Azərbaycan iqtisadiyyatının digər sahələrinə də xarici sərmayələr qoyuluşunda həlledici rol oynadı və bu, Heydər Əliyevin uğurlu neft strategiyasının təntənəsi idi.

1999-cu ilin dekabrında Azərbaycanın ilk mənfəət nefti ilə doldurulmuş tankeri dünya bazarlarına çıxarıldı. Ulu Öndər Heydər Əliyevin neft strategiyasının əsas istiqamətlərindən biri kimi Azərbaycan neftinin dünya bazarlarına nəqli vacib hesab edilirdi. Bu sahədə Azərbaycanın mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli Şərq-Qərb marşrutunun yaradılmasından ibarət idi. Ulu Öndər Heydər Əliyevin əzmkarlığı və qətiyyəti nəticəsində Bakı-Tbilisi-Ceyhanın çəkilməsinə dair sazişin imzalanması mümkün oldu. Ulu öndərin qəti əzmkarlığı və

**AUDİT 2023, 1 (39), səh. 49-56.**
**AUDIT 2023, 1 (39), pp. 49-56.**
**АУДИТ 2023, 1(39), стр. 49-56.**

Türkiyə, Azərbaycan və Gürcüstan dövlətlərinin birliyi nəticəsində çoxlarının əfsanə hesab etdiyi layihə reallığa, gerçəkliyə çevrildi. 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatdı və iyulun 4-də neftlə yüklənmiş ilk tanker buradan yola salındı. İyulun 13-də Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi. BTC dünya dövlətləri ilə Azərbaycan dövlətinin yeni münasibətlərinin, dünya xalqları ilə Azərbaycan xalqının əlaqələrinin yenidən qurulmasına təkan verdi, Azərbaycanın xarici siyasətinin güclənməsinə və inkişaf etməsinə səbəb oldu. Bu strategiya növbəti illərdə geniş şəkildə davam etdirilməklə Prezident İlham Əliyev tərəfindən mükəmməl şəkildə yerinə yetirilir.

Sosial-iqtisadi inkişafın Heydər Əliyev modeli Azərbaycan dövlətinin alternativsiz inkişaf konsepsiyasını özündə əks etdirir. Bu siyasətin Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi, görülən möhtəşəm işlər, siyasi və iqtisadi islahatlar, milli maraqların gerçəkləşməsi üçün qətiyyətli və ardıcıl mübarizə gələcəyimizə böyük inam və etibarlı təminat yaradır.

Ölkəmiz tam mənada Ulu Öndər Heydər Əliyevin inkişaf strategiyasına uyğun tərəqqi edir, bu kursun davamlılığını və alternativsizliyini şərtləndirən amillərin sosial sifarişə əsaslandığını tam sübuta yetirir. Ötən dövrdə Azərbaycanın bütün həyatı əhəmiyyətli sahələrində qazandığı böyük uğurlar, möhkəm təməllərə söykənən sosial-iqtisadi sabitlik, vətəndaşlarımızın seçiminin alternativsizliyi, dəyişməzliyi bir daha təsdiq olundu.

Prezident İlham Əliyevin bu istiqamətdə apardığı siyasət, imzaladığı Fərman və Sərəncamlarda, təsdiq etdiyi Dövlət Proqramlarında insanların mənafelərinin ən ali səviyyədə qorunması, zəruri sosial müdafiə tədbirlərinin həyata keçirilməsi üçün geniş imkanlar yaratılmışdır. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda həyata keçirilən səmərəli iqtisadi islahatlar kursu respublikamızı sürətli inkişaf yoluna çıxarıb. Yeni dövrün tələblərinə uyğun davam etdirilən sosial-iqtisadi siyasət xətti ölkənin dinamik inkişafını təmin etmiş və əhalinin maddi rifah halının yüksəlməsinə gətirib çıxarmışdır.

Azərbaycan iqtisadiyyatının bütün sahələrinin sürətli inkişafı, o cümlədən yerli və xarici investisiyalar, müasir texnologiyalar, təkmil idarəetmə, rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılması infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan vermişdir. Onun rəhbərliyi ilə işğal olunmuş Qarabağ torpaqlarının geri qaytarılması hər zaman gündəmdə olan əsas məsələ kimi dövlət başçısının nəzarətində idi. Azərbaycan Ordusunun sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatında əldə etdiyi möhtəşəm qələbələr, 44-günlük zəfər yürüşü və cəbhə uğurlarımızın ən başlıca səbəbi Prezident, Ali Baş Komandan İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası, milli birlik və düşüncələrimizin ruh-yüksəkliyi idi (6, s.42).

Beynəlxalq təşkilatların 30 il ərzində edə bilmədiklərini Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qısa müddətdə gerçəkləşdirdi. Müharibənin taleyini müəyyənləşdirən başda Ali Baş Komandanımız olmaqla döyüş meydanında əsl qəhrəmanlıq göstərən Azərbaycan əsgəri və onun cəsur komandirləri idi. Ordumuzun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatları nəticəsində noyabrın 9-dan 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu

**AUDİT 2023, 1 (39), səh. 49-56.**
**AUDIT 2023, 1 (39), pp. 49-56.**
**АУДИТ 2023, 1(39), стр. 49-56.**

çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcəkdir.

Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərq və Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Azərbaycan dövləti ölkədə əhalinin rifahının daha da artırılması üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolunu seçmişdir. Azərbaycan artıq dünyada həm iqtisadi, həm siyasi, həm də hərbi inkişaf strategiyasını həyata keçirən, öz torpaqlarını qəhrəmancasına işğaldan azad edib, geri qaytarmış müzəffər qalib bir dövlət kimi özünü təsdiq etdi. Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoymuş qüdrətli bir dövlətə çevrilmişdir. 30 il düşmən əsarətində qalmış 20% torpaqlarımızın işğaldan azad edilməsi və o torpaqlara insanların qayıtması və yenidən həyat qurması bu gün Azərbaycan Dövləti qarşısında duran ən mühüm məsələlərdəndir. İşğaldan azad olunmuş torpaqlarda dayanıqlı iqtisadi inkişafı təmin etmək üçün ölkə başçısı tərəfindən geniş miqyaslı və uzunmüddətli tədbirlər planı həyata keçirilir. Bu tədbirlərin həyata keçirilməsi qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Azərbaycanın regional iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirir.

Məlum olduğu kimi, Prezident İlham Əliyevin imzaladığı - Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərlərin təsdiq edilməsi haqqında Sərəncamda 2020-ci ildə ölkəmizin işğal altındakı torpaqlarının azad edilməsi və ərazi bütövlüyünün bərpası ilə nəticələnən tarixi zəfərdən sonra Azərbaycan keyfiyyətcə yeni strateji-mərhələyə daxil olmuşdur. Azərbaycanın yeni inkişaf mərhələsində qarşıya qoyulmuş irimiqyaslı inkişaf istiqamətləri məqsədləri ölkənin uzunmüddətli sosial-iqtisadi inkişafın və ona uyğun milli prioritetlərinin müəyyən olunmasını tələb edir. Bu prioritetlərdən biri işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışdır (1,s.12). Bu milli prioritet işğaldan azad olmuş ərazilərin bərpası və yenidən qurulması ilə bağlıdır. Əldə olunan qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından köçkün düşən insanların Vətənə qayıdışı təmin olunmalıdır.

Böyük Qayıdışın həyata keçirilməsi vətəndaşlarımızın azad olunmuş bölgələrdə əhalinin dayanıqlı məskunlaşması və bu ərazilərin bərpası, inkişaf etdirilməsi və ölkənin iqtisadi fəaliyyətinə qoşulmasına bir təməl olacaq. İşğaldan azad olmuş bölgələrdə əhalinin dayanıqlı məskunlaşması təmin olunmalıdır. Bu ərazilər cəmiyyətin ən sağlam, müasir formada qurulmuş, abad, ekoloji cəhətdən təmiz, dünya standartlarına uyğun müasir infrastrukturu olan müasir prinsiplərə əsaslanan komfortlu yaşayış mühitinə çevrilməlidir. Milli prioritetlərdə nəzərdə tutulan tədbirlər mövcud iqtisadi modelin məzmun və strukturunun əsaslı dəyişilmə-sinə yönəlmişdir.

**AUDİT 2023, 1 (39), səh. 49-56.**
**AUDIT 2023, 1 (39), pp. 49-56.**
**АУДИТ 2023, 1(39), стр. 49-56.**

## YEKUN

Azərbaycanda aparılan sosial-iqtisadi islahatlar, əldə edilən makroiqtisadi sabitlik, dayanıqlı iqtisadi inkişaf, qabaqcıl infrastruktur və təminat yüksək həyat səviyyəsinə müsbət təsir göstərir. İşğaldan azad edilən ərazilərdə yaradılacaq əlverişli biznes mühiti mikro, kiçik və orta sahibkarlığın formalaşması qeyri-neft sektorunun dinamik inkişafına əsaslı təkan vermiş olacaq və nəticədə idxalı əvəz edən məhsulların yerli istehsalı hesabına həcmi və çeşidi artırmaqla yanaşı, ixracyönümlü məhsulların istehsalı da artacaqdır. Bu iqtisadi inkişafa əminlik o torpaqların münbit olması, məhsuldar olması və zəngin təbii ehtiyatlara malik olmasıdır. İşğaldan azad edilmiş torpaqların zəngin təbii resurslara malik olması o regionda sənayenin müxtəlif sahələrinin kənd təsərrüfatı, tikinti sahələrinin inkişafına böyük imkanlar açacaq.

Ərazilərin zəngin su ehtiyatlarına malik olması, müxtəlif minerallarla zəngin müalicəvi su yataqlarının olması gələcəkdə bu rayonların iqtisadi inkişafının müxtəlif istiqamətlərdə ixtisaslaşmasından xəbər verir. Regionun müxtəlif enerji resurslarına malik olması orada iqtisadiyyatın bütün sahələrini enerjiyə olan tələbatının öz enerji resursları vasitəsilə ödəniləcəyini göstərir. Bütün bu faktların olması gələcəkdə işğaldan azad olunmuş torpaqlarımızda sahibkarlığın bütün sahələrinin inkişafı üçün potensialın olduğundan xəbər verir. Qarşımızda duran əsas vəzifə ölkə başçısı Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə qəbul olunmuş sosial-iqtisadi inkişaf proqramlarına uyğun olan istiqamətlərdə mövcud xammal və enerji resurslarından qənaətlə istifadə etməklə Qarabağın dayanıqlı sosial-iqtisadi inkişafını təmin etməkdir.

Beləliklə, Ümümmilli Lider Heydər Əliyevin müəyyən etdiyi strateji istiqamətlər, bu gün müstəqil dövlətimizin Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanı Avropanın enerji təhlükəsizliyinin qarantlarından biri olan ölkəyə çevirməklə çox böyük uğurla davam edir və müasir yanaşma ilə reallaşdırılan iqtisadi, siyasi, demokratik inkişaf prosesləri ölkəmizin xarici dövlətlərlə inteqrasiyasını sürətləndirir.

### İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı
2. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafi Dövlət Proqramı, Bakı şəhəri, 29 yanvar 2019-cu il.
3. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı. Bakı, 2016. 59 s.
4. Əliyev Ş.T. Qlobal çağırışlar şəraitində Azərbaycanda demoqrafik inkişaf. // Audit № 3, 2018, s. 42-57.
5. Ataşov B.X. Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı, 2005. 336 s.
6. İbrahimov İ.H. Regionlarda sahibkarlığın inkişaf meylləri və xüsusiyyətləri. Bakı, 2007. 296 s.
7. Quliyev E.A. Aqrar iqtisadiyyat. Bakı, 2015, 320 s.
8. Əliyev Ş.T. Qlobal çağırışlar şəraitində Azərbaycanda demoqrafik inkişaf prosesləri və məşğulluq məsələləri // Audit № 3, 2018, s. 42-57.

**AUDİT 2023, 1 (39), səh. 49-56.**
**AUDIT 2023, 1 (39), pp. 49-56.**
**АУДИТ 2023, 1(39), стр. 49-56.**

*Azer Maarif Panahov,*
*Ph.D. (Econ.), Assosiate Professor,*
*Baku Business University,*
*E-mail: azer-panahov@mail.ru*
*© A.M. Panahov, 2023*

## HEYDAR ALIYEV IS THE ARCHITECT OF THE FORMATION OF AN INDEPENDENT NATIONAL ECONOMY OF AZERBAIJAN

### A B S T R A C T

Great leader Heydar Aliyev, as a national leader, devoted his entire life and political activity to serving his people, and during both periods of his leadership in Azerbaijan he managed to lead our country to progress, leading it out of difficult trials. As a result of the multifaceted, balanced, active foreign policy of Azerbaijan, aimed at ensuring peaceful and favorable international conditions for the protection and strengthening of state independence and integration of our country into the world community, our republic has taken a worthy place on the political map of the planet, and has an important position in solving global problems, problems of the region and the international community. Thanks to the activities of Heydar Aliyev, the national system of governance of the country was completely changed and conditions were created for improving the areas that stimulate the development of the economy of the Republic of Azerbaijan.

**Keywords:** the strategy of the state, economic development, market relations, protect-tion of independence, political activity.

*Панахов Азер Маариф оглы*
*доктор философии по экономике,*
*Бакинский Университет Бизнеса,*
*E-mail: azer-panahov@mail.ru*
*©Панахов А.М., 2023*

## ГЕЙДАР АЛИЕВ ЯВЛЯЕТСЯ АРХИТЕКТОРОМ ФОРМИРОВАНИЯ НЕЗАВИСИМОЙ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА

### Р Е З Ю М Е

Общенациональный Лидер Гейдар Алиев, всю свою жизнь и политическую деятельность посвятил служению своему народу, и в оба периода своего руководства в Азербайджане сумел вести нашу страну к прогрессу, выведя ее из тяжелых испытаний. В результате многоплановой, взвешенной, активной внешней политики Азербайджана, направленной на обеспечение мирных и благоприятных международных условий для защиты и укрепления государственной независимости и интеграции нашей страны в мировое сообщество, наша республика заняла достойное место на политической карте планеты, и имеет важную позицию в решении глобальных проблем региона и международного сообщества. Благодаря деятельности Гейдара Алиева была полностью изменена национальная система управления страной и созданы условия для улучшения сфер, стимулирующих развитие экономики Азербайджанской Республики.

**Ключевые слова:** стратегия государства, экономическое развитие, рыночные отношения, защита независимости, политическая деятельность.

*Məqalə redaksiyaya daxil olmuşdur: 11.01.2023*
*Təkrar işləməyə göndərilmişdir: 19.01.2023*
*Çapa qəbul olunmuşdur: 27.01.2023*

*Дата поступления статьи в редакцию: 11.01.2023*
*Отправлено на повторную обработку: 19.01.2023*
*Принято к печати: 27.01.2023*

*The date of the admission of the article to the editorial office: 11.01.2023*
*Send for reprocessing: 19.01.2023*
*Accepted for publication: 27.01.2023*